# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu və Belarus Respublika Fundamental Tədqiqatlar Fondunun qrantların verilməsi üzrə 2-ci Azərbaycan-Belarus birgə beynəlxalq müsabiqəsinin(EİF-BGM-3-BRFTF-2+/2017) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

## YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Azərbaycan-Belarus: Böyük Vətən müharibəsi illərində döyüş və əmək dostluğu birliyi (1941-1945-ci illər)**

Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Bağırova İradə Səid qızı**

Qrantın məbləği: **40 000 manat**

Layihənin nömrəsi: **EİF-BGM-3-BRFTF-2+/2017-15/14/5-M-15**

Müqavilənin imzalanma tarixi: **29 mart 2018-ci il**

Qrant layihəsinin yerinə yetirilmə müddəti: **24 ay**

Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 may 2018-ci il – 01 may 2020-cu il**

Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır

Diqqət! Uyğun məlumat olmadığı təqdirdə müvafiq bölmə boş buraxılır

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| 1 | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |
| | *(burada doldurmalı)*<br>Layihənin birinci ili ərzində Azərbaycan-Belarus müştərək layihəsi üzrə aşağıdakı işlər görülmüşdür:<br>1. Layihənin birinci ilində, o cümlədən dördüncü rübündə mövzu üzrə Azərbaycan Respublikasının arxivlərində, Rusiya Dövlət Arxivində və AMEA Tarix İnstitutunun arxivində mövcud olan sənədlər əldə edilmiş və təhlil olunmuşdur.<br>Əvvəlki hesabatlarımızda qeyd olunduğu kimi, bu günə qədər mövcud olan yerli və xarici elmi ədəbiyyatda Belorusiyadan Qafqaza və Azərbaycana evakuasiya olunan əhali, müəssisə və hərbi hospitalların yerləşdirilməsi demək olar ki, işıqlandırılmamışdır. Həmçinin azərbaycanlıların Belarus cəbhəsində və partizan hərəkatında iştirakı da geniş şəkildə araşdırılmamışdır. Layihə işləri çərçivəsində yeni arxiv sənədləri əldə edilmişdir ki, |

bu da mövcud olan boşluğun aradan qaldırılmasına və mövzunun daha geniş şəkildə təhlil olunmasına imkan verir.

- Layihə iştirakçıları Azərbaycan Respublikasının aşağıdakı arxivlərində işləmişlər:
- Azərbaycan Respublikasının Dövlət Arxivinin 411 (Azərbaycan SSR Xalq Komissarları Soveti / Nazirlər Soveti), iş N 456 və 2449 (Bakı təxliyə məntəqəsi) saylı fondlarında, işlər N 1-6, 13-19, 24-46 mövzu ilə əlaqədar 19 müəllif vərəqi və ya 475 səhifə həcmində material toplanılmaşdır. Aşkar edilmişdir ki, 1941-1942-ci illərdə SSRİ-nin müharibənin toxunduğu müxtəlif respublikalarından və bölgələrindən Bakı şəhərinə və Azərbaycan SSR-nin rayonlarına 23 mindən artıq vətəndaş köçürülmüşdü ki, onlardan ən təxmini hesablamalara görə, təxminən 1000 nəfəri Belorusiya SSR-dən gəlmiş köçkünlər təşkil edirdi. Arxiv sənədlərinin araşdırılması nəticəsində Bakı şəhərində 1941-ci il iyul-oktyabr aylarında məskunlaşmış 200 nəfər Belorusiyadan gəlmiş qaçqının adını, doğum tarixini, milliyyətini, yaşadığı yeri və yerləşdiyi ünvanı müəyyənləşdirmək mümkün olmuşdur. Əldə olan bilgilər sayəsində həmin şəxslər haqqında məlumatları özündə əks etdirən təfərrüatlı cədvəl hazırlanmışdır.
- Bundan əlavə, Azərbaycana təxliyə olunmuş vətəndaşların, o cümlədən Belorusiyadan gəlmiş köçkünlərin respublikanın 32 rayonunda məskunlaşdığı aşkara çıxarılmışdır. Arxiv sənədlərinin araşdırılması nəticəsində məlum olmuşdur ki, Belorusiya SSR-dən gəlmiş köçkünlər əsasən Puşkin (Biləsuvar), Zaqatala, Samux, Bərdə, Əli-Bayramlı (Şirvan), Jdanovsk (Beyləqan), Sabirabad, Salyan, Tərtər, Nuxa, Ağdam, Ağcabədi rayonlarında məskunlaşmışdılar.
- Azərbaycan Prezidenti yanında İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində (APİİSSA) Azərbaycan KP Mərkəzi Komitəsinin Bürosu fondunun (Fond N 1) 26-cı siyahısının 40-54, 58-69,103-177, 206-225, 318 saylı işlərinə baxılmış, 5 müəllif vərəqi və ya 125 səhifə material toplanılmaşdır. Həmin işlərdə AKP Mərkəzi Komitəsinin birinci katibi M.C.Bağırovun 1941-ci ildə L.P.Beriya ilə yazışması, İ.V.Stalinin AKP Mərkəzi Komitəsinə müəssisələrin və işğal altında olan torpaqlardan əhalinin təxliyəsi ilə bağlı məktubları, 416-cı diviziyanın formalaşması barədə sənədlər aşkar olunmuşdur.
- Ş.Rəhmanzadə 2018-ci ilin sentyanrında layihə çərçivəsində Moskvaya ezam olunmuş, Rusiya Federasiyasının Dövlət Arxivində (RFDA) və Rusiya Dövlət Kitabxanasında layihə mövzusu ilə əlaqədar arxiv materialları toplamış, mövcud ədəbiyyatla tanış olmuşdur. RFDDA-da əsasən P-6822 saylı "Təxliyə şurasının" fondunun 409, 422, 466, 493, 504, 507, 510, 511, 538 saylı arxiv işlərindən müharibənin ilk illərində Belorusiya SSR-dən təxliyə olunan müəssisələrlə bağlı arxiv sənədləri aşkar edilərək, onların fotosurəti çıxarılmış, lazımi çıxarışlar edilmişdir. Həmçinin müharibə dövründə və ondan sonra Belorusiyanın xalq təsərrüfatının bərpasında Azərbaycan SSR-nin yardımlarına dair müəyyən faktlar əldə edilmişdir.
- AMEA Tarix İnstitutunun Elmi arxivində iş aparılarkən hələ sovet dövründə Belorusiya SSR-nin arxivlərindən gətirilmiş sənədlər üzə çıxmışdır. Onların arasında müharibə mövzusu ilə əlaqədar və indiyə kimi elmi dövriyyəyə daxil edilməmiş, yəni heç bir elmi əsərdə istifadə olunmamış yeni sənədlər aşkarlanmışdır. Layihə iştirakçılarının araşdırmaları nəticəsində Belarus ərazisində hərbi hissələrdə və partizan dəstələrində alman ordusuna qarşı vuruşmuş yüzdən çox Azərbaycan vətəndaşı haqqında qiymətli məlumatlar əldə edilmişdir. Onlardan bir çoxu alman əsirliyindən qaçaraq, belorus partizanlarının dəstələrinə qoşulmuş və alman işğalçılarına qarşı döyüş əməliyyatlarında fəal iştirak etmişdilər. Bəzi soydaşlarımız nizami qoşunların sıralarında döyüşlərdə yaralanaraq, hərbi hospitallarda yerləşdirilmiş, daha sonra isə partizan hərəkatına qoşulmuşdular. Bir çox azərbaycanlı partizan qəhrəmancasına vuruşaraq döyüşlərdə həlak olmuşdular. Belarus ərazisində partizan dəstələrində vuruşan

Azərbaycan oğulları partizan hərəkatında fəal iştirak etmiş, bəziləri hətta partizan dəstələrinin komandirləri olmuşdular. Yeni əldə etdiyimiz sənədlərə görə, göstərdikləri mərdliyə və şücaətə görə onların bir qismi "Qızıl ulduz", "Qızıl bayraq", "Vətən müharibəsi" ordenləri ilə, 1-ci və 2-ci dərəcəli "Vətən müharibəsi partizani", "Şücaət" medalları ilə təltif edilmişlər.

- Layihənin tərtib olunmuş ədəbiyyat siyahısına sovet və post-sovet dövründə nəşr edilmiş, II Dünya müharibəsi və 1941-1945-ci illər müharibəsinə həsr olunmuş elmi əsərlərin təhlili davam etmişdir. Həmin əsərlərin içərisində A.Y.Bezuqolnının kitabı xüsusi yer tutur (Безугольный А. Ю. Народы Кавказа в вооруженных силах СССР в годы Великой Отечественной войны. Ставрополь 2004). 2007-ci ildə işıq üzü görmüş İlya Moşanski və Viktor Parşının Brest qalasının müdafiəsinə həsr olunmuş monoqrafiyası da layihənin icrasına böyük töhfə vermişdir (И.Мощанский, В.Паршин. Трагедия Бреста. Боевые действия на территории Белоруссии 22 июня-23-июля 1941 года. Москва: БТВ Книга, 2007).

- Həmçinin Azərbaycanda sovet və müstəqillik dövründə nəşr olunmuş elmi ədəbiyyat araşdırılmışdır – Мехтиев Г.Г. Деятельность Коммунистической партии Азербайджана в период Великой Отечественной войны. Баку: Азерб.Гос. из-во, 1965; Alıcanov M. Azərbaycan döyüşçülərinin partizan hərəkatında iştirakı (1941-1944-cü illər). Bakı, 1975; Azərbaycan SSR xalq təsərrüfatı Böyük Vətən müharibəsi illərində. Bakı, 1975; Абасов М., Мусаева Т. Письма славы и бессмертия (1941-1945). Баку. 1987; Буниятов З.М., Зейналов Р.Э. От Кавказа до Берлина Баку, 1990; 402-ci Azərbaycan milli diviziyasının döyüş yolu. Bakı, 1998; Bəhrəmov C.Ə. Azərbaycan generalları 1941-1945-ci illər müharibəsi illərində. Bakı: Elm, 2008; Cümşüdlü F. Azərbayacn II Dünya müharibəsi illərində. Bakı. 2011; Гусейнов А.А. Азербайджан в 1941-1945. Кавалеры ордена славы. Баку. 2014; Hüseynov A. , Mirzəyev H. Azərbaycan 1941-1945. "Aleksandr Nevski" ordenli cəngəvərlərimiz. Bakı, 2015; Bağırova İ.S. Отражение событий и оценок Второй мировой и Великой Отечественной войны в современной российской и азербайджанской историографии.; Budaqova S.İ. Идеологическая работа на Кавказском фронте и участие азербайджанцев в боях за Беларусь во время Великой Отечественной войны; Əliyeva S.İ. Азербайджанцы на фронтах Второй мировой войны.- Этот день мы приближали, как могли... // Материалы Междунар. науч.-практ. конф., посвященной 70-летию Победы в Великой Отечественной войне и окончания Второй мировой войны (Минск 7–8 мая 2015 г.) В 2 ч. Ч. 1, Минск, 2016; Niftəliyev İ.V. Некоторые особенности места и роли Азербайджана в истории Второй Мировой войны (современная азербайджанская историография). Международный симпозиум «Азербайджан во Второй мировой войне и предотвращение холокоста на Кавказе». Баку, 17-19 октября 2012 г.; Dulayeva Z., Cabbarov F., Bağırov F., Ağayev F. Они сражались за Беларусь. Баку, 2012; E.Şəripov. Азербайджанцы в обороне Брест-Литовской крепости. Баку, 2018.

- Arxivlərdə əldə olunmuş materiallar əsasında layihə iştirakçıları və rəhbəri dörd məqalə yazmışlar:
- Onlardan biri layihə rəhbəri İ.Bağırova tərəfindən yazılmış və Belarus Respublikasının 2018-ci ilin noyabrında Qomel şəhərində keçirilmiş konfransın materiallarında çapdan çıxmışdır.
- Digər məqalə layihə iştirakçıları İ.Niftəliyev, Ş.Rəhmanzadə və C.Bəhrəmov tərəfindən yazılmış, "Geostrategiya" jurnalının 3-cü nömrəsində çap edilmək üçün qəbul edilmişdir.
- İyunun 27-28-də Minsk şəhərində Belarus Elmlər Akademiyasının Tarix institutu

"Baqration əməliyyatı (Belorusiyanın nasist işğalından azad olunmasının 75-illiyi)nə" həsr olunmuş beynəlxalq konfrans keçiriləcəkdir. Bu konfransa layihə iştirakçıları İlqar Niftəliyev və Şamil Rəhmanzadə öz məqalələrini təqdim etmişlər.

- Əsərin təfərrüatlı plan-prospekti hazırlanmış və müəllif kollektivi iştirakçıları qarşısında, onların elmi maraqlarını nəzərə almaqla, fəsillərin hazırlanmasına dair konkret vəzifələr qoyulmuşdur.
- Plana uyğun olaraq müvafiq mətnlərin yazılması başlanmışdır.
- Tədqiqatın nəzəri-metodoloji əsasına universal tarixilik üsulu, materialın şərhində problem-xronoloji yanaşma, müqaisəli təhlil, arxiv sənədlərinin, Vətən və xarici tarixi ədəbiyyatın obyektiv və tənqidi təhlili qoyulmuşdur. Tədqiqat işinin yekununda həmçinin sənədli əlavələr, illüstrativ materiallar və cədvəllər əks olunacaqdır.

2 Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirməli)

*(burada doldurmalı)*

Layihədə nəzərdə tutulmuş işlərin 50% qədəri yerinə yetirilmişdir.

3 Hesabat dövründə alınmış **elmi nəticələr** (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir)

*(burada doldurmalı)*

Görülən tədqiqat belə nəticəyə gəlməyə əsas vermişdir ki, II Dünya müharibəsi illərində Azərbaycan-Belorus əlaqələri əsasən iki istiqamətdə inkişaf etmişdir:

1. Azərbaycan SSR Belorusiya dinc əhalisinin təxliyə edildiyi yer və Belorus SSR-idən ölkənin şərq rayonlarına sənaye müəssisələrin daşınması üçün yük-boşaltma məntəqəsi rolunu oynamışdır.
2. Azərbaycanlılar partizan dəstələrinin və Qızıl Ordunun nizami qoşunlarının tərkibində Belorusiya SSR-nin alman işğalından azad edilməsində fəal iştirak etmişdilər.

-Tədqiqat işləri nəticəsində Belorusiya SSR-nin cəbhələrində və arxa cəbhədə vuruşmuş azərbaycanlılar barədə yeni məlumatlar əldə etmək mümkün olmuşdur. Həmçinin Belarusdan Azərbaycana köçürülmüş insanlar və onların taleyi haqqında əldə olunmuş məlumatlar tədqiqat bazasını daha da genişləndirmişdir. Müəyyən edilmişdir ki, onların əsas hissəsini yəhudi mənşəli vətəndaşlar təşkil etmişlər. Bu faktın özü Azərbaycan SSR-nin dolayısı ilə olsa da, yəhudi xalqının soyqırımı təhlükəsindən qurtularaq, etibarlı sığınacaqla, eləcə də geyim, ərzaq və zəruri əşyalarla təmin olunmasında xidmətlərini ortaya çıxarır. Ümumiyyətlə, aşkar edilmiş sənədlər istər Azərbaycanda köçürülmə işinin, istər arxa cəbhənin təşkili, istərsə də əmək ehtiyatlarının idarə olunması üzrə hökumət strukturlarının fəaliyyətinin elmi səviyyədə öyrənilməsinə imkan verir. Sadalanan məsələlərlə yanaşı, bu sənədlər həmçinin müharibə illərində Azərbaycanın Belorusiya əhalisinə göstərdiyi yardımların miqyas və xarakterini təhlil etmək üçün də böyük töhfədir.

- Aparılmış tədqiqat işlərinin nəticəsində dörd məqalə yazılmışdır, onlardan biri Belorusiyanın Qomel şəhərində çapdan çıxmışdır, biri yerli jurnalda çapa qəbul edilmişdir, ikisi isə iyun ayında Minsk şəhərində keçiriləcək konfransa təqdim edilmişdir. Minsk şəhərinə ezamiyyətin layihədə nəzərdə tutulmamağı səbəbindən İ.Niftəliyev və Ş.Rəhmanzadə Tarix institutunun vəsaiti imkan versə, konfransda iştirak edə biləcəklər.

| | |
|---|---|
| 4 | Layihə üzrə **elmi nəşrlər** (elmi jurnallarda məqalələr, monoqrafiyalar, icmallar, konfrans materiallarında məqalələr, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə, uyğun məlumat - jurnalın adı, nömrəsi, cildi, səhifələri, nəşriyyat, indeksi, İmpact Factor, həmmüəlliflər və s. bunun kimi məlumatlar - ciddi şəkildə dəqiq olaraq göstərilməlidir) *(surətlərini kağız üzərində və CD şəklində əlavə etməli!)* |
| | *(burada doldurmalı)*<br>İradə Bağırova. Azərbaycanlıların Belorusiyanın partizan hərəkatında işturakı (1941-1945).- «Участие азербайджанцев в партизанском движении в Беларуси (1941-1945 гг.)» - Беларусь в год коренного перелома в годы Великой Отечественной войны (к 75-летию освобождения города Гомеля): сборник научных статей.– Гомель: ГГУ имени Ф. Скорины, 2018, с.71-81<br><br>İlqar Niftəliyev, Şamil Rəhmanzadə, Cəbi Bəhrəmov. «İkinci Dünya müharibəsi illərində Azərbaycan-Belarus əlaqələri tarixindən».- Məqalə "Geostrategiya" jurnalının may-iyun 2019 N3 (51) nömrəsinə çap edilmək üçün qəbul edilmişdir.<br><br>İlqar Niftəliyev. "II Dünya müharibəsi dövründə Azərbaycan-Belarus hərbi əməkdaşlığı (AMEA Tarix institutu elmi arxivinin sənədləri əsasında)" . «Военное сотрудничество Азербайджана с Белоруссией в годы Второй мировой войны (на основе материалов из Научного архива Института истории Азербайджана)». – Международная научно-практическая конференция *«Операция «Багратион» (к 75-летию освобождения Беларуси от нацистской оккупации)»*.-Время проведения: 27 – 28 июня 2019 г., Минск, Институт истории НАН Беларуси.<br>Şamil Rəhmanzadə. "Böyük Vətən müharibəsi illərində Belorus SSR-nin vətəndaşlarının Azərbaycan SSR-yə təxliyə edilməsi tarixindən" - «Из истории эвакуации граждан Белорусской ССР в Азербайджанскую ССР в годы Великой Отечественной Войны».- Международная научно-практическая конференция *«Операция «Багратион» (к 75-летию освобождения Беларуси от нацистской оккупации)»*.-Время проведения: 27 – 28 июня 2019 г., Минск, Институт истории НАН Беларуси. |
| 5 | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | *(burada doldurmalı)* |
| 6 | Layihə üzrə ezamiyyətlər (ezamiyyə baş tutmuş təşkilatın adı, şəhər və ölkə, ezamiyyə tarixləri, həmçinin ezamiyyə vaxtı baş tutmuş müzakirələr, görüşlər, seminarlarda çıxışlar və s. dəqiq göstərilməlidir) |
| | *(burada doldurmalı)*<br>2018-ci ilin sentyabrın 23-dən 29-dək layihə iştirakçısı Şamil Rəhmanzadə Rusiya Federasiyasının Moskva şəhərində elmi ezamiyyətdə olmuşdur. Sentyabrın 24-dən 28-dək Rusiya Federasiyasının Dövlət Arxivində (RFDA) və Rusiya Dövlət Kitabxanasında layihə mövzusu ilə əlaqədar arxiv materialı toplanılmış, mövcud ədəbiyyatla tanış olunmuşdur. RFDDA-da əsasən P-6822 saylı "Təxliyə şurasının" fondunun 409, 422, 466, 493, 504, 507, 510, 511, 538 saylı arxiv işlərindən müharibənin ilk illərində Belorusiya SSR-dən təxliyə olunan müəssisələrlə bağlı arxiv sənədləri aşkar edilərək, onların fotosurəti çıxarılmış, lazımi çıxarışlar edilmişdir. |

| | |
|---|---|
| 7 | Layihə üzrə elmi ekspedisiyalarda iştirak (əgər varsa) |
| | *(burada doldurmalı)* |
| 8 | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | *(burada doldurmalı)* |
| 9 | Layihə mövzusu üzrə elmi məruzələr (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s. çıxışlar) (məlumat tam şəkildə göstərilməlidir: a) məruzənin növü: plenar, dəvətli, şifahi və ya divar məruzəsi; b) tədbirin kateqoriyası: ölkədaxili, regional, beynəlxalq) |
| | *(burada doldurmalı)*<br>Layihə rəhbəri İ.Bağırovanın «Участие азербайджанцев в партизанском движении в Беларуси (1941-1945 гг.)» adlı məruzəsi Belarusun Qomel şəhərində 2018-ci ilin noyabrında keçirilmiş " Беларусь в год коренного перелома в годы Великой Отечественной войны (к 75-летию освобождения города Гомеля)" konfransına göndərilmiş və konfransın materiallarında çap edilmişdir (Məqalənin kağız və CD variantı əlavə olunur). Əvsuslar olsun ki, layihənin ezamiyyət xərcləri ixtisar olunduğu səbəbindən konfransda iştirak mümkün olmamışdır.<br>İyun ayının sonunda Minsk şəhərində layihənin mövzusu ilə əlaqədar beynəlxalq konfransda layihə iştirakçıları İ.Niftəliyev və Ş.Rəhmanzadənin iştirakı gözlənilir. |
| 10 | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar, komplektləşdirmə məmulatları |
| | *(burada doldurmalı)* |
| 11 | Yerli həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)*<br>Layihədə iştirak edən işçilərlə daimi ünsiyyət qurulub, arxiv sənədləri və ədəbiyyatla bölüşür, fikir mübadiləsi aparılır. |
| 12 | Xarici həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)*<br>Belarus Respublikasının Elmlər Akademiyasının Tarix institutunda işləyən həmkarlarla elektron poçt vasitəsi ilə əlaqə saxlanılır, onlar görülən işlər barədə məlumatlandırılır. Öz növbəsində Belarusiyalı həmkarlar da layihə çərçivəsində görülən işlər və yazdığı mətnlər barədə bizə məlumat göndərirlər. |
| 13 | Layihə mövzusu üzrə kadr hazırlığı (əgər varsa) |
| | *(burada doldurmalı)* |
| 14 | Sərgilərdə iştirak (əgər baş tutubsa) |
| | *(burada doldurmalı)* |
| 15 | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi (əgər baş tutubsa) |
| | *(burada doldurmalı)* |
| 16 | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış |

internet səhifələri və s. (məlumatı tam şəkildə göstərilməlidir)

*(burada doldurmalı)*

Layihə iştirakçısı, Tarix institutunun direktor müavini Cəbi Bəhrəmov "İki sahil" internet televiziya kanalında II Dünya müharibəsi və orada azərbacanlıların iştirakı barədə müsahibə vermişdir (08.05.2019).

Cəbi Bəhrəmov həmçinin 2019-cu il mayın 9-da AZTV kanalında və Lider TV-də II Dünya müharibəsində qələbəyə həsr olunmuş və alman faşistləri üzərində qələbədə Azərbaycanın rolunu, həmvətənlərimizin Belorus, Ukrayna cəbhələrində və partizan hərəkətində iştirakı barədə geniş məlumat vermişdir.

Layihə iştirakçısı İlgar Niftəliyev 2018-ci ilin mayın 8-də Polis Akademiyasında II Dünya müharibəsində qələbəyə həsr olunmuş tədbirdə iştirak etmiş, Azərbaycanın qələbəyə verdiyi töhfəsi barəsə danışmışdır.

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Baş məsləhətçi**
**Quliyeva Mülayim Sahib qızı**

_______________
*(imza)*
"10" 05 2019-ci il

**İCRAÇI:**

**Layihə rəhbəri**
**Bağırova İradə Səid qızı**

_______________
*(imza)*
"10" may 2019-ci il

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**

**ELMİN İNKİŞAFI FONDU**

---

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu və Belarus Respublika Fundamental Tədqiqatlar Fondunun qrantların verilməsi üzrə 2-ci Azərbaycan-Belarus birgə beynəlxalq müsabiqəsinin(EİF-BGM-3-BRFTF-2+/2017) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

# ALINMIŞ NƏTİCƏLƏRİN ƏMƏLİ (TƏCRÜBİ) HƏYATA KEÇİRİLMƏSİ VƏ LAYİHƏNİN NƏTİCƏLƏRİNDƏN GƏLƏCƏK TƏDQİQATLARDA İSTİFADƏ PERSPEKTİVLƏRİ HAQQINDA MƏLUMAT VƏRƏQİ

**(Qaydalar üzrə Əlavə 16)**

Layihənin adı: **Azərbaycan-Belarus: Böyük Vətən müharibəsi illərində döyüş və əmək dostluğu birliyi (1941-1945-ci illər)**

Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Bağırova İradə Səid qızı**

Qrantın məbləği: **40 000 manat**

Layihənin nömrəsi: **EİF-BGM-3-BRFTF-2+/2017-15/14/5-M-15**

Müqavilənin imzalanma tarixi: **29 mart 2018-ci il**

Qrant layihəsinin yerinə yetirilmə müddəti: **24 ay**

Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 may 2018-ci il – 01 may 2020 ci il**

## 1. Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi

| | |
|---|---|
| **1** | Layihənin əsas əməli (təcrübi) nəticələri, bu nəticələrin məlum analoqlar ilə müqayisəli xarakteristikası |
| | *(burada doldurmalı)*<br><br>Lyihədə qoyulan problemin işlənilməsi XX əsrin ən mühüm hadisələrinin – İkinci dünya və Böyük Vətən müharibələri haqqında biliklərin dərinləşməsinə kömək edəcək.<br><br>Bəlli olduğu kimi, bu savaşlar bizim milyonlarla həmvətənimizin tarixində, talelərində və yaddaşında silinməz iz buraxmış, həyata qədəm basan gənc nəsillərin milli mənlik şüurunun tərkib hissəsinə çevrilmişdir. Müasir gerçəklik, ölkəmizin son 27 ildə müharibə şəraitində yaşadığını və 20 faiz torpaqlarımızın işğal altında olduğunu nəzərə alaraq, əhəmiyyətli dərəcədə II Dünya müharibəsi hadisələrinin təcrübəsinə və onlardan əxz olunmuş ibrət dərslərinə əsaslanır və tarixi yaddaşın qorunub saxlanılmasını tələb edir. |

| | |
|---|---|
| | Birgə elmi əmək lokal plandan olan işləmələri alman işğalçılarına qarşı mübarizədə belorusların və azərbaycanlıların döyüş ülfəti məsələsinə dair tarixçilər tərəfindən irəli sürülən ümumi konseptual müddəalar ilə vahid bütövdə birləşməsinə xidmət edir.<br><br>Birgə işin nəticəsi olaraq geniş sənədli əlavələrə, illüstrativ materiala malik müasir kompleks fundamental analitik tədqiqatın nəşrə hazırlanması nəzərdə tutulmuşdur. Layihə müəlliflərinin təqdim etdiyi hipoteza innovasiya səciyyəlidir, belə ki, əvvəllər tədqiqatçılar tərəfindən layihədə öz əksini tapan bir çox məqamlar günümüzədək təhlil edilməmişdir. |
| 2 | Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi haqqında məlumat (istehsalatda tətbiq (tətbiqin aktını əlavə etməli); tədris və təhsildə (nəşr olunmuş elmi əsərlər və s. – təhsil sisteminə tətbiqin aktını əlavə etməli); bağlanmış xarici müqavilələr və ya beynəlxalq layihələr (kimlə bağlanıb, müqavilənin və ya layihənin nömrəsi, adı, tarixi və dəyəri); dövlət proqramlarında (dövlət orqanının adı, qərarın nömrəsi və tarixi); ixtira üçün alınmış patentlərdə (patentin nömrəsi, verilmə tarixi, ixtiranın adı); və digərlərində) |
| | *(burada doldurmalı)*<br><br>Sözügedən elmi çalışma yeni nəzəri səviyyədə Azərbaycan və Belorus xalqlarının nasizm üzərində qələbəyə verdikləri töhfəni göstərməyə imkan verəcəkdir.<br><br>Müştərək elmi layihə Belorus və Azərbaycan alimlərinin sosial-humanitar sahədə elmi əlaqələrinin bundan sonrakı möhkəmlənməsinə kömək etməklə yanaşı, Azərbaycan və Belarus Respublikalarında böyüməkdə olan nəsillərin istər tarixi yaddaşının saxlanılması, istərsə də vətənpərvər tərbiyəsi üçün böyük önəmə malik olacaq.<br><br>Kollektiv monoqrafiya şəklində nəşr olunması nəzərdə tutulan elmi tədqiqat işi ali məktəblərdə və II Dünya müharibəzinə həsr olunmuş gələcək tədqiqatlarda istifadə oluna bilər. |

## 2. Layihənin nəticələrindən gələcək tədqiqatlarda istifadə perspektivləri

| | |
|---|---|
| 1 | Nəticələrin istifadəsi perspektivləri (fundamental, tətbiqi və axtarış-innovasiya yönlü elmi-tədqiqat layihə və proqramlarında; dövlət proqramlarında; dövlət qurumlarının sahə tədqiqat proqramlarında; ixtira və patent üçün verilmiş ərizələrdə; beynəlxalq layihələrdə; və digərlərində) |
| | *(burada doldurmalı)*<br><br>Tədqiqat materialları, alınmış faktiki və statistik bilgilər, qənaətlər və ümumiləşdirmələr, II Dünya və Böyük Vətən müharibəsinin bir çox aspekti üzrə əldə edilmiş yeni biliklər Belarus və Azərbaycanın tarixi üzrə ümumiləşdirilmiş əsərlərin, tədris kurslarının və vəsaitlərinin yaradılmasında, ideoloji işdə, siyasi-dövlət fəaliyyəti sahəsində faydalı və zəruri olacaqdır. |

| | | | | |
|---|---|---|---|---|
| | O cümlədən, beynəlxalq konfras materiallarında | 1 | 1 | 2 |
| 4. | Məruzələrin tezisləri | | | |
| | həmçinin, beynəlxalq tədbirlərin toplusunda | 1 | | |
| 5. | Digər (icmal, atlas, kataloq və s.) | | | |

## 2. İxtira və patentlər (sayı)

| № | Elmi məhsulun növü | Alınmış | Verilmiş | Ərizəsi verilmiş |
|---|---|---|---|---|
| 1. | Patent, patent almaq üçün ərizə | | | |
| 2. | İxtira | | | |
| 3. | Səmərələşdirici təklif | | | |

## 3. Elmi tədbirlərdə məruzələr (sayı)

| № | Tədbirin adı (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s.) | Tədbirin kateqoriyası (ölkədaxili, regional, beynəlxalq) | Məruzənin növü (plenar, dəvətli, şifahi, divar) | Sayı |
|---|---|---|---|---|
| 1. | «Беларусь в год коренного перелома в годы Великой Отечественной войны (к 75-летию освобождения города Гомеля)»– Гомель: ГГУ имени Ф. Скорины, 8-9 ноября 2018 года | Beynəlxalq | Dəvətli | 1 |
| 2. | «Операция «Багратион» (к 75-летию освобождения Беларуси от нацистской оккупации)» Минск, Институт истории НАН Беларуси, 27 – 28 июня 2019 г. | Beynəlxalq | Dəvətli | 2 |
| 3. | | | | |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**İCRAÇI:**

**Baş məsləhətçi**
**Quliyeva Mülayim Sahib qızı**

_______________
*(imza)*
" 11 " __may_2020_-ci il

**Layihə rəhbəri**
**Bağırova İradə Səid qızı**

_______________
*(imza)*
" 11" _may_ 2020_-ci il